# Rebus teatrının “Hamlet X” tamaşası nümayiş olunub

**Noyabrın 5-də Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının kiçik səhnəsində Rebus Teatrının V.Şekspirin “Hamlet” faciəsinin motivləri əsasında hazırlanmış “Hamlet X” tamaşası nümayiş olunub.**



Tamaşa Mədəniyyət Nazirliyinin müstəqil teatrlara dəstək proqramı çərçivəsində nümayiş olunub. Sözügedən proqram müstəqil teatrlara ayda bir dəfə, dövlət teatrlarının binasında tamaşasını təqdim etmək üçün şəraitin yaradılmasını nəzərdə tutur.

Psixo-plastik qrotesk janrında hazırlanan tamaşanın ideya müəllifi və quruluşçu rejissoru Ceyhun Dadaşovdur. Tamaşada rejissorun özü ilə yanaşı, Əli Əlizadə, Elnur İsmayılov, Natəvan Abbaslı, Ziya Ağa və Rasimə Abbaslı iştirak edirlər. V.Şekspirin faciəsini sözsüz təqdim edən Rebus teatrı əsərə sərbəst yozum verib.

Kaspi 2019.- 7 noyabr.- S.9.